# Vanda Qərbi Azərbaycana qayıdışa dəstək

**Türkiyənin “Van Yüzüncü İl” Universitetində Qərbi Azərbaycanda erməni zorakılıqları nəticəsində doğma torpaqlarından didərgin düşmüş və Türkiyənin müxtəlif bölgələrinə sığınmış soydaşlarımızın taleyi ilə bağlı konfrans keçirilmişdir.**




Tədbiri giriş sözü ilə açan universitetin Sosial elmlər kafedrasının müdiri, professor Bəkir Koçlar ötən əsrin 20-ci illərində erməni zülmünün azərbaycanlıların zorla yurdlarından çıxarılmasına səbəb olmasından, bu ailələrin acı talelərindən bəhs etmişdir. O demişdir ki, Şərqi Anadolunun müxtəlif yerlərində məskunlaşan əhali bu günə qədər öz doğma vətənlərinə geri dönmək arzuları ilə yaşayır, yurd həsrəti çəkirlər. Onların Qərbi Azərbaycana geri dönmələri zəruridir və beynəlxalq qanunlara tamamilə uyğundur.

Konfransda məruzə edən Türkiyənin Ərciyəs Universitetinin professoru, tanınmış ermənişünas alim Qafar Mehdiyev tarixi Azərbaycan torpaqlarında qeyri-qanuni Ermənistan dövlətinin elan olunmasından sonra, buraya erməni əhalinin köçürülərək gətirilməsindən, İrəvan xanlığının ərazisində demoqrafik durumun ermənilərin xeyrinə süni surətdə dəyişdirilməsindən, eləcə də Ermənistan dövlətinin planlı şəkildə etnik təmizləmə siyasəti həyata keçirməsindən danışmışdır.

Q.Mehdiyev, həmçinin ermənilərə xas olan qatı irqçi düşüncə nəticəsində azərbaycanlıların ayrı-ayrı dövrlərdə öz torpaqlarından çıxarılması ilə bağlı tarixi sənəd və dəlillərdən nümunələr gətirmişdir. Qeyd etmişdir ki, 1918-ci ildən başlayaraq, 1988–1989-cu illərə qədər davam edən repressiya və deportasiya aktları Ermənistanı monoetnik dövlətə çevirmişdir.



İndi bu ölkədə bir nəfər də olsun azərbaycanlı yaşamır. Lakin Qərbi Azərbaycan əsilli milyonlarla əhali öz Vətənini unutmamışdır. Onlar öz doğma yurdlarına qayıtmaq üçün mübarizə aparmaq əzmindədirlər. Ermənistan dövləti bu insanların dönüş haqqını əllərindən ala bilməyəcək.

Konfrans Azərbaycan Respublikası QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı və “Müstəqil Araşdırmaçı Jurnalistlər Liqası” İctimai Birliyinin təşkilatçılığı ilə keçirilmişdir.

***XQ***

Xalq qəzeti .- 2024.- 30 may, № 112.- S.15.